ədalət.- 2020.- 18 avqust.- S.5.





Vaqif Aslan

# Şeir və şair mifi

(əvvəli ötən sayımızda)

**B.Vahabzadənin özü və öz taleyi ilə tanışlığı bununla bitməmişdi. O daha da irəli getmiş, insanlığa və dünyaya sevgisi ilə özünü ən ali məqamda dərk etmək istəmişdi. Elə buradaca qeyd etmək istəyirəm ki, B. Vahabzadə yaradıcılığının son dövrünü həm də içindəki Allahı etiraf dövrü kimi də qiymətləndirmək olar:**

*İdrakda yol açmış gecədən güdüzə Allah.*
*Güldürməsən öz könlünü, gülməz üzə Allah.*
*Dünyaya şəfəqlər kimi Tanrım səpələnmi,*
*Qəlbin gözü yanmazsa, görünməz gözə Allah.*

Şair elə bu məqamda cin, şeytan xislətli adamların ondan necə qorxduqlarını, qorxduqları üçün ona tələlər qurduqlarını hiss etmişdi...və birdən gözünə faniliyə qəhqəhə çəkən Nəsimi görünmüşdü. Füzulinin timsalında özündən 500 il əvvəl var olan varlığına, Nəsiminin timsalında isə 700 il əvvəlki özünə baxmışdı. Artıq orada ümumbəşəri sevginin işığında xəbisliklərinin aşkarlanacağından qorxan iblis təbiətli əmirlər, vəliəhdlər onun dərisini soyurdular. Bununla da iş bitmirdi. Nəsil-nəsil insan və gözəllik qarşısında baş əydikcə ucalan yeni-yeni Nəsimilər meydana gəlirdi. Nəsimini soyan nadanlar yenə də öz işlərində idilər. Bu həqiqətləri öz taleyində yaşayan B.Vahabzadə insanları Hüseyn Cavidsayağı bir şəkildə qorxmazlığa və dönməzliyə çağırırdı :

*İnsanı ucaldan ulu bir eşq , dəyanət.*
*Alçaldan isə... Qorxu , xəyanət.*
*Qorxduqsa ölümdən və əcəldən ,*
*İnsanlığı verdik demək əldən .*
*Qorxduqsa əgər zülmdən , haqdan keçər olduq.*
*Qorxduqsa əgər zülmə qul olduq , nökər olduq.*

Nəsimilərin get-gedə təkləndiyini görüncə şairin qəlbindən dəli bir fəryad qopdu və bu fəryad tarixi bir dramın sərlövhəsinə çevrildi. S. Rüstəm yazırdı: "Səməd Vurğunun "Vaqif" dramından sonra "Fəryad" pyesi dramaturgiyamızda olan böyük bir boşluğu doldurdu"(17, 2; 18, 128). Özünə və dünyaya mifik, poetik, fəlsəfi gözlə baxan şair soyulan dərinin özününkü olduğunu hiss etdikcə daha da irəliyə (əslində geriyə , yəni keçmişə) boylandı. Orada pas tutmuş bir qılınc gördü. O qılınca əl uzatmağa kimsə cürət etmirdi. Şair irəli keçib o qılıncı götürmək istəyəndə qabağını kəsdilər :-Əl vurma, sehirlidir ! Bu qılınc kimin əlində olsa, elə onun özünü kəsir , - dedilər.

***1200 il bundan əvvəl özünün nə gündə olduğunu görən şair heyrət və dəhşət içində "Özümüzü kəsən qılınc" əsərini qələmə aldı. Özündən əvvəlkilərin ona vəsiyyət etdiklərini bu günkü və gələcək nəsillərə çatdırmaq istədi.***

***

Öz keçmişi və şöhrətli tarixindən ta bu günlərədək keçilən yollara nəzər salan şair fərd kimi, millət kimi cılızlaşmağa etiraz edir: "gələni çəpiklə qarşılamağı, gedəni təpiklə yola salmağı" öz-özünə yadlaşma kimi qiymətləndirir. XX əsrin sonlarında xalqımızın başına gələn bəlaların qarşısını almaq üçün milli ruhumuza qayıdışı zəruri sayır:

***Güzəran naminə boğuldu gerçək ,***
***Yalana əl çaldı şərəf də, şan da.***
***Bəy, xan qürurumuz yolçu payıtək***
***Paylandı didərgin çadırlarında.***

Bəzən xatirələr ona qorxulu yuxular kimi görünür. Ona görə ki, şairin şahidi olduğu hadisələr və qarşılaşdığı insanlar çox mürəkkəbdir. Bu mürəkkəblik qarşısında tərəddüd keçirməmək mümkün deyildir. Mənsub olduğu xalqın sabahı üçün təşviş keçirən sair yazır:

***Bunu düşündükcə xoflanıram mən ,***
***Vallahi, kimsədən bir gileyim yox.***
***Mən necə qorxmayım xatirələrdən?***
***Mənim keçmişim var, gələcəyim yox.***

Şairin bu fikrində nə qədər haqlı olmasını situativ məqamlarla izah etmək olar. Yəni hansısa bir məqamda deyilən bu fikir ani şəkildə gəlib keçən hisslərdən yaranan ovqatın məhsuludur. Təbiidir ki, xalqının keçmişi ilə öyünən bir şair həm də öz xalqının gələcəyi ilə fəxr etmək arzusunda olur. Burada, sadəcə olaraq, gözəl bir gələcəyimiz olsun deyə narahatlıq keçirən şairin "mənim keçmişim var" deməsində gələcək nəsillərə gələcəyimizi qorumaq tapşırığı vardır.

Bütün yaradıcılığı boyunca B.Vahabzadəni ən çox düşündürən problem zaman problemi olmuşdur. Keçmişi və gələcəyi indiki zamanın üzərində cəmləşdirmək bacarığı, bu günündən dünəninə və sabahına baxmaq istəyi mövzu və janr rəngarəngliyindən asılı olmayaraq onun şeirlərinin ana xəttinə çevrilmişdir.

Zaman rəqəmlərə sığmadığı üçün elmin, hamıya aydın və hamıya qaranlıq olduğuna görə hər bir kəsin ağrılı yeridir. Zaman ölçülü olduqda davamlıdır, ölçüsüz olduqda əbədiyyətdir. Hansısa bir zaman çərçivəsindən çıxıb başqa bir zaman çərçivəsinə daxil olmaq aralıq zaman mövcudluğunda mümkündür. Əslində poetik özündən uzaqlaşma və özünə yaxınlaşma B.Vahabzadənin zaman içərisində hissi , idraki manevrlərindən başqa bir şey deyildir.

Bəzən zaman və məkan dolaşıqlığında bu şairin xoşbəxtliyinə qibtə etməmək də olmur. İllər boyu həsrətdən, hicrandan gileyli şairin əlçatmaz vüsalında könül xoşluğunun da olduğunu görürük:

***Sən mənim qəribə qismətim, payım,***
***Gecələr Günəşim, gündüzlər Ayım.***
***Güneydə quzeyim, qışda yazimsan,***
***Sən mənim həmişə əlçatmazımsan.***

İşə bir bax ! Vüsalı da özündən əlin çatmayacaq qədər uzaqlaşdırasan və bundan da həzz alasan! Bu məqamda Süleyman Rəhimovun müdrik kəlamlarını xatırlamaq yerinə düşür: "Bəxtiyarın bütün fəaliyyətində onun şairliyi birincidir, başdır" (Bax. Süleyman Rəhimov. Şahin şahpərli şair. "Azərbaycan" jurnalı, 1975, № 10, səh. 21).

B. Vahabzadənin 12 cildliyinin işıq üzü görməsində müstəsna xidməti olan professor Ramazan Qafarlı yazır: "Şairin poetik yaradıcılığının, dramaturgiyasının leytmotivini təşkil edən vətən sevgisi, milli istiqlal, ana dili, mənəviyyat, haqq-ədalət və s. mühüm ictimai, bəşəri problemlər onun çoxşaxəli publisistikasında-məqalə, çıxış, məktub və müsahibələrində də eyni vətəndaşlıq mövqeyindən bədii-emosional vüsətlə qaldırılır" (Bax. Bəxtiyar Vahabzadə. Əsərləri. XII cild, səh. 4). B.Vahabzadə kainatın varlığını sevgidə gördüyü üçün məhəbbəti, arzunu, şair sözünü və zamanı əbədi hesab edir:

***Qocaldır insanı , qocaldır zaman...***
***Ürəyin atəşi , közü qocalmır.***
***Dağları, daşları qocaldan zaman***
***Bilmirəm bəs niyə özü qocalmır?***



***Getdi baharımız , yer qışa qaldı,***
***Düzlər qara qaldı , yağışa qaldı.***
***Bizimki bir quru baxışa qaldı,***
***Neyləyək? Arzunun gözü qocalmır.***

***Bəxtiyar , düşünək biz dərin-dərin...***
***Xəyallar möhtəşəm , arzular şirin.***
***Əsil sənətkarın , əsil şairin***
***Özü qocalsa da , sözü qocalmır.***

Şair elə şair olduğu üçün məhəbbət, arzu və zaman sonsuzluğunda ağıl-hiss hədləri və sərhədlərini gördükdə heyrətlənir:

***Gah ağlıma uydum , gah da könlümə...***
***Ürək bir tərəfdə , baş bir tərəfdə.***
***Qəlb iki qansızın arasındadır,***
***Zaman bir tərəfdə, yaş bir tərəfdə.***

Bir yandan da yaş ilə ölçülən zamanla ölçüyəgəlməz zaman arasında qaldığından hər şeyin bir tərəfdə olmasını arzulayan şair əslində ölçüsüzlüyə can atır - "bir salama dəyməyən eşqin" üzərindən keçib dünyanı yaşadan sevgiyə üz tutur. 2009-cu il fevral ayının 13-də axşamtərəfi böyük şairimizin dünyasını dəyişməsi və fevralın 14-də üçrəngli Azərbaycan bayrağına bükülərək I Fəxri Xiyabanda torpağa tapşırılması çox sevdiyi və nəhayət, bir zərrəsinə çevrildiyi Azərbaycanı ilə qovuşub əbədiyyətə çevrilməsi idi.

***P.S.*** **B.Vahabzadə itkisi bütün türk dünyasını titrətdi. Şəxsən mənə müxtəlif türk ellərindən verilən verilən başsağlıqlarının sayı-hesabı yox idi. Onların bir çoxu yaşadıqları kədəri bir andaca şeirə çevirirdilər:**

***Bir çinar devrilmiş uzaq ellərde...***
***Hüzn dolmuş karlı dağların ardı.***
***Adı bir efsane, gezer dillerde...***
***Millet,e sevdalı, Millet,e yardı.***

***Yürekde heyecan, damarda kandı...***
***Sevdası Türkiye, Azerbaycandı.***
***Hep ayni ülküyle kavrulup yandı.***
***O-Vahazadeydi. O-Bahtiyardı!***
***(Hakkı Şener.Türkiyə, Biləcik)***

Digər bir şair isə öz duyğularını belə ifadə edirdi:

***Çox severdin Albayrağın alını.***
***Keşke görüp öpeyidim elini.***
***Çok yakından duyayıdım dilini...***
***Giden geri gelemedi Bahtiyar!***
***Kör gözlüler bilemedi Bahtiyar!***

**(Muhsin Tozlu. Türkiye, Nevşehir)**

Sayımbeylinin Təkə ilçəsindən (Adana vilayəti) Rəcəb Çağlar yanayana belə yazırdı:

***"Gülme öz kökünе, ayıptır sene!***
***Ot kökün üstünde biter, unutma!"***
***Dedin ve yaşadın seksendört sene.***
***Boynumuzu bükük koydun, Bahtiyar!***

***Yaşayacak elbet fikrin, sözlerin.***
***Geride kalmasın güzel gözlerin.***
***Atasıydın, rehberiydin bizlerin.***
***Boynumuzu bükük koydun, Bahtiyar!***

İndi B.Vahabzadə ömrünün ömürlərə qovuşduğu zamandır. Zaman axaraında gələcək türk birliyinə üz tutan xalqımız böyük şairimizin ruhunu yad və şad edir.

**Ulu Tanrı sözümüzə və özümüzə yar olsun.**